# Vətəndaşsızlıq hallarının azaldılması haqqında

# Konvensiya

Razılığa gələn Dövlətlər,

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1954-cü il dekabrın 4-də qəbul etdiyi 896(IX) nömrəli qətnaməsinə müvafiq hərəkət edərək,

vətəndaşsızlıq hallarının beynəlxalq sazişlə azaldılmasının arzu edildiyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## *Maddə 1*

1. Razılığa gələn Dövlət onun ərazisində doğulan, əks halda vətəndaşlıq əldə edə bilməyən şəxsə öz vətəndaşlığını verir. Belə vətəndaşlıq aşağıdakı hallarda verilir:

a) doğulduqda qanunun qüvvəsilə və ya

b) milli qanunvericiliyə uyğun olaraq, maraqlı şəxs tərəfindən, yaxud onun adından müvafiq hakimiyyət orqanları qarşısında vəsatət qaldırıldıqda belə vəsatətlər, bu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, rədd edilməməlidir.

Bu bəndin b) yarımbəndinə əsasən öz vətəndaşlığını verməyi nəzərdə tutan Razılığa gələn Dövlət, həmçinin öz vətəndaşlığını milli qanunvericiliyə əsasən müəyyən edilən yaş və şərait nəzərə alınmaqla qanunun qüvvəsilə verməyi nəzərdə tuta bilər.

2. Razılığa gələn Dövlət bu maddənin 1-ci bəndinin b) yarımbəndinə müvafiq olaraq öz vətəndaşlığını verməsini aşağıdakı şərtlərin birindən və ya bir neçəsindən asılı edə bilər:

a) vəsatət Razılığa gələn Dövlətin müəyyən etdiyi yaş dövrü ərzində—on səkkiz yaşından gec olmayaraq başlayıb, iyirmi bir yaşından tez olmayaraq qurtarmaqla—verilir; lakin elə edilməlidir ki, buna qanuni icazə alınmasına ehtiyac qalmadan, maraqlı şəxsin özünün vəsatət verməsinə imkan verən, heç olmasa, bir il vaxtı olsun;

b) maraqlı şəxs Razılığa gələn Dövlətin ərazisində, həmin dövlət tərəfindən müəyyən edilə bilən müddət ərzində—bu müddətin bilavasitə vəsatətin verildiyi vaxtdan beş ildən çox əvvəl və ya bütövlükdə on ildən çox əvvəl olmaması şərtilə—daimi yaşayr;

c) maraqlı şəxs milli təhlükəsizliyə qarşı qanun pozuntusu törətməyə görə məhkum olunmamış və cinayət ittihamına görə beş il, yaxud ondan çox müddətə həbs cəzasına məhkum edilməmişdir;

d) maraqlı şəxs həmişə apatrid olmuşdur.

3. Bu maddənin 1-ci b) və 2-ci bəndlərinin müddəalarına baxmayaraq, anasının vətəndaşlığı olan Razılığa gələn Dövlətin ərazisindəki nikahdan doğulan uşaq—əks halda vətəndaşlığı olmazsa—doğularkən bu dövlətin vətəndaşlığını əldə edir.

4. Razılığa gələn Dövlət öz vətəndaşlığını, əks halda vətəndaşlıq əldə edə etməyən və vəsatət vermək üçün lazım olan yaş həddi ötdüyünə, yaxud tələb olunan yaşayış şərtlərinə əməl etmədiyinə görə ərazisində doğulduğu Razılığa gələn Dövlətin vətəndaşlığını qəbul etmək iqtidarında olmayan şəxsə—bu şəxs doğularkən onun valideynlərindən birinin vətəndaşlığı adı birinci çəkilən Razılığa gələn Dövlətin vətəndaşlığı olubsa—verir. Maraqlı şəxsin valideynləri o doğularkən eyni vətən-daşlığa malik olmayıblarsa, onun vətəndaşlığının atasının, yaxud anasının vətəndaşlığı üzrə getməsi məsələsi Razılığa gələn həmin Dövlətin qanunvericiliyi əsasında müəyyən edilir. Belə vətəndaşlıq əldə etmək üçün vəsatət lazımdırsa, bu vəsatət ərizəçinin özü tərəfindən. yaxud onun adından milli qanunvericiliyə uyğun olaraq, müvafiq hakimiyyət orqanlarına verilməlidir. Belə vəsatətlər, bu maddənin 5-ci bəndinin müddəaları nəzərə alınmaqla, rədd edilməməlidir.

5. Razılığa gələn Dövlət bu maddənin 4-cü bəndinin müddəalarına müvafiq olaraq öz vətəndaşlığını verməsini aşağıdakı şərtlərin birindən və ya bir neçəsindən asılı edə bilər:

a) vəsatət ərizəçi Razılığa gələn Dövlətin müəyyən etdiyi yaş həddinə çatana qədər—iyirmi üç yaşından az olmayaraq—verilir;

b) maraqlı şəxs Razılığa gələn Dövlətin ərazisində, həmin dövlət tərəfindən müəyyən edilə bilən müddət ərzində—bu müddətin bilavasitə vəsatətin verildiyi vaxtdan üç ildən çox əvvəl olmaması şərtilə—daimi yaşayır;

c) maraqlı şəxs həmişə apatrid olmuşdur.

## *Maddə 2*

Razılığa gələn Dövlətin ərazisində tapılmış uşağın doğum yeri müəyyən edilməyənə qədər onun bu ərazidə, bu dövlətin vətəndaşları olan valideynlərdən doğulduğu ehtimal edilir.

## *Maddə 3*

Razılığa gələn Dövlətlərin bu Konvensiyaya müvafiq olaraq öhdəliklərini müəyyənləşdirmək məqsədilə, dəniz və ya hava gəmisində doğum, konkret haldan asılı olaraq, ya dəniz gəmisinin bayrağı altında üzdüyü dövlətin, ya da hava gəmisinin qeydə alındığı dövlətin ərazisində baş vermiş sayılır.

## *Maddə 4*

1. Razılığa gələn Dövlət öz vətəndaşlığını, əks halda vətəndaşlığı ola bilməyən, ərazisində doğulmamış şəxsə—həmin şəxs doğularkən onun valideynlərindən birinin vətəndaşlığı bu dövlətin vətəndaşlığı olubsa—verir. Şəxs doğularkən onun valideynlərinin vətəndaşlığı eyni olmayıbsa, maraqlı şəxsin vətəndaşlığının atasının, yaxud anasının vətəndaşlığı üzrə getməsi məsələsi Razılığa gələn həmin Dövlətin qanunvericiliyi əsasında müəyyən edilir. Vətəndaşlıq bu maddənin müddəalarına müvafiq olaraq aşağıdakı kimi verilir:

a) doğulduqda qanunun qüvvəsilə və ya

b) milli qanunvericiliyə uyğun olaraq, maraqlı şəxs tərəfindən, yaxud onun adından müvafiq hakimiyyət orqanları qarşısında vəsatət qaldırıldıqda, belə vəsatətlər bu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, rədd edilməməlidir.

2. Razılığa gələn Dövlət bu maddənin 1-ci bəndinin müddəalarına müvafiq olaraq öz vətəndaşlığını verməsini aşağıdakı şərtlərin birindən və ya bir neçəsindən asılı edə bilər:

a) vəsatət ərizəçi Razılığa gələn Dövlətin müəyyən etdiyi yaş həddinə çatana qədər—iyirmi üç yaşından az olmayaraq—verilir;

b) maraqlı şəxs Razılığa gələn Dövlətin ərazisində, həmin dövlət tərəfindən müəyyən edilə bilən müddət ərzində—bu müddətin bilavasitə vəsatətin verildiyi vaxtdan üç ildən çox əvvəl olmaması şərtilə—daimi yaşayır;

c) maraqlı şəxs milli təhlükəsizliyə qarşı qanun pozuntusu törətməyə görə məhkum edilməmişdir:

d) maraqlı şəxs həmişə apatrid olmuşdur.

### *Maddə 5*

1. Razılığa gələn Dövlətin qanunu şəxsi statusda hər hansı bir dəyişiklik -məsələn, nikah, nikahın pozulması, qanuniləşdirmə, tanınma və ya övladlığa götürülmə—nəticəsində vətəndaşlığın itirilməsini nəzərdə tutursa, vətəndaşlığın bu cür itirilməsi başqa vətəndaşlığın əldə edilməsi üçün şərt olur.

2. Razılığa gələn Dövlətin qanununa müvafiq olaraq nikahdankənar doğulan uşaq qohumluq əlaqələrinin tanınması nəticəsində həmin dövlətin vətəndaşlığını itirirsə, ona müvafiq hakimiyyət orqanlarına yazılı vəsatət verməklə vətəndaşlığını bərpa etmək imkanı yaradılır; vəsatət vermək şərtləri bu Konvensiyanın 1-ci maddəsinin 2-ci bəndində ifadə edilmiş şərtlərdən sərt olmamalıdır.

### *Maddə 6*

Razılığa gələn Dövlətin qanunu şəxsin vətəndaşlığını itirməsi və ya ondan məhrum olması nəticəsində onun ərinin (arvadının), yaxud uşaqlarının bu dövlətin vətəndaşlığını itirməsini nəzərdə tutursa, vətəndaşlığın bu cür itirilməsi başqa vətəndaşlığın əldə edilməsi ilə şərtləndirilir.

### *Maddə 7*

1. a) Razılığa gələn Dövlətin qanunu vətəndaşlıqdan imtina etməyə icazə verirsə, belə imtina müvafiq şəxs başqa vətəndaşlıq əldə etməyincə onun vətəndaşlığının itirilməsinə səbəb olmamalıdır;

b) bu bəndin a) yarımbəndinin müddəaları Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il dekabrın 10-da qəbul etdiyi İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 13-cü və 14-cü maddələrində ifadə olunmuş prinsiplərə uyğun gəlmədikdə tətbiq edilmir.

2. Razılığa gələn Dövlətin hər hansı bir xarici dövlətin vətəndaşlığını qəbul etmək barədə vəsatət verən vətəndaşı həmin xarici dövlətin vətəndaşlığını əldə etməyincə və ya bu barədə təminat almayınca öz vətəndaşlığını itirmir.

3. Bu maddənin 4-cü və 5-ci bəndlərinin müddəalarını nəzərə almaq şərtilə, Razılığa gələn Dövlətin vətəndaşı xaricə getmək, orada qalmaq, qeydiyyata düşməmək, yaxud buna bənzər hər hansı bir əsas nəticəsində vətəndaşlığını itirməyərək apatrid olmur.

4. Başqa dövlətin vətəndaşlığını qobul etmiş şəxs müvafiq Razılığa gələn Dövlətin qanununda müəyyən edildiyi müddətdə—bu müddət yeddi ildən az olmamalıdır—fasiləsiz xaricdə yaşayarsa, öz vətəndaşlığını saxlamaq niyyətini müvafiq hakimiyyət orqanına bildirmədiyi təqdirdə vətəndaşlığını itirə bilər.

5. Razılığa gələn Dövlətin vətəndaşı bu dövlətin ərazisində doğulmayıbsa, bu dövlətin qanunu onun yetkinlik yaşına çatandan bir il keçdikdən sonra həmin dövlətin vətəndaşlığını saxlamasını bu dövlətin ərazisində yaşaması və ya müvafiq orqanlarda qeydiyyatdan keçməsi ilə şərtləndirə bilər.

6. Bu maddədə xatırlanan hallar istisna olmaqla, şəxsin vətəndaşlığını itirməsi onun vətəndaşsızlığına gətirib çıxararsa—bu Konvensiyanın hər hansı digər müddəaları bu cür itirilməni birbaşa qadağan etməsə də,—o, Razılığa gələn Dövlətin vətəndaşlığını itirmir.

## *Maddə 8*

1. Razılığa gələn Dövlətin vətəndaşlıqdan məhrum etməsi şəxsi apatridə çevirirsə, həmin dövlət onu vətəndaşlıqdan məhrum etmir.

2. Bu maddənin 1-ci bəndinin müddəalarına baxmayaraq, şəxs aşağıdakı hallarda vətəndaşlıqdan məhrum edilə bilər:

a) 7-ci maddənin 4-cü və 5-ci bəndlərinə müvafiq olaraq, şəxsin vətəndaşlığını itirməsinə icazə verildiyi hallarda;

b) vətəndaşlıq yanlış məlumatlar təqdim olunması və ya saxtakarlıq nəticəsində əldə edildiyi hallarda.

3. Bu maddənin 1-ci bəndinin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlət imzalama, təsdiqetmə, yaxud qoşulma zamanı aşağıdakı bir və ya bir neçə səbəb—bu səbəblər həmin vaxt onun milli qanunvericiliyində təsbit olunubsa,—əsasında şəxsi vətəndaşlıqdan məhrum etmək hüququnu özündə saxladığını göstərərsə, həmin dövlət bu hüququ özündə saxlaya bilər:

a) şəxs Razılığa gələn Dövlətə sədaqət borcuna zidd olaraq:

i) Razılığa gələn Dövlətin birbaşa qadağan etməsinə etinasızhq göstərərək, digər dövlətə qulluq göstərmiş və ya göstərməkdə davam edirsə, yaxud həmin digər dövlətdən muzd alıbsa, yaxud almaqda davam edirsə, yaxud

ii) özünü dövlətin həyati mənafelərinə xələl gətirən tərzdə aparıbsa;

b) başqa dövlətə sədaqət andı içibsə və ya bu haqda rəsmi bəyanat veribsə, yaxud onun Razılığa gələn Dövlətə sədaqətdən imtina etməkdə qərarlı olduğuna dəlalət edən müəyyən sübutlar varsa.

4. Razılığa gələn Dövlət müvafiq şəxsin məhkəmə və ya digər müstəqil orqan tərəfindən qərəzsiz araşdırma hüququnu nəzərdə tutan qanuna müvafiq hərəkət etdiyi hallar istisna olmaqla, bu maddənin 2-ci və 3-cü bəndlərində nəzərdə tutulan vətəndaşlıqdan məhrumetmə hakimiyyətini həyata keçirməməlidir.

### *Maddə 9*

Razılığa gələn Dövlət heç bir şəxsi və ya şəxslər qrupunu irqi, etnik, dini, yaxud siyasi əsaslara görə vətəndaşlıqdan məhrum edə bilməz.

### *Maddə 10*

1. Razılığa gələn Dövlətlər arasında ərazi verilməsini nəzərdə tutan hər hansı müqaviləyə bu verilmə nəticəsində heç kəsin apatrid olmayacağına təminat verən müddəalar daxil edilməlidir. Razılığa gələn Dövlət onun bu Konvensiyanın tərəfi olmayan dövlətlə bağladığı hər hansı bu cür müqavilədə belə müddəaların olmasını təmin etmək üçün mümkün olan hər şeyi etməlidir.

2, Belə müddəalar olmadıqda ərazi verilən, yaxud digər şəkildə ərazi əldə edən Razılığa gələn Dövlət əks halda bu verilmə, yaxud əldə edilmə nəticəsində apatridə çevrilə biləcək şəxslərə öz vətəndaşlığını verir.

### *Maddə 11*

Razılığa gələn Dövlət altıncı təsdiqnamə və ya qoşulma sənədi saxlanca veriləndən sonra, mümkün olan kimi, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində bu Konvensiyaya görə hüquqlara iddia edən şəxsin onun iddiasına baxılması və bu iddianın müvafiq hakimiyyət orqanına təqdimatına yardım göstərilməsi üçün müraciət edə biləcəyi bir orqanın təsis olunmasına yardım göstərəcəkdir.

### *Maddə 12*

1. Bu Konvensiyanın 1-ci maddəsinin 1-ci bəndinin və ya 4-cü maddəsinin müd-dəalarına müvafiq olaraq, öz vətəndaşlığını qanunun qüvvəsilə doğum vaxtı verməyən Razılığa gələn Dövlət barəsində 1-ci maddənin 1-ci bəndinin, yaxud 4-cü maddənin müddəaları, konkret haldan asılı olaraq, bu Konvensiya qüvvəyə minənə qədər, eləcə də qüvvəyə minəndən sonra doğulan şəxslərə tətbiq edilir.

2. Bu Konvensiyanın 1-ci maddəsinin 4-cü bəndinin müddəaları o, qüvvəyə minənə qədər, eləcə də qüvvəyə minəndən sonra doğulan şəxslərə tətbiq edilir.

3. Bu Konvensiyanın 2-ci maddəsinin müddəaları yalnız bu Konvensiya Razılığa gələn Dövlət üçün qüvvəyə minəndən sonra onun ərazisində tapılmış uşaqlara tətbiq edilir.

### *Maddə 13*

Bu Konvensiya Razılığa gələn hər hansı Dövlətin hazırda qüvvədə olan və ya gələcəkdə qüvvəyə minəcək qanunlarında, yaxud iki və ya daha çox Razılığa gələn Dövlət arasında qüvvədə olan, yaxud gələcəkdə qüvvəyə minəcək hər hansı digər konvensiyalarda, müqavilələrdə, yaxud sazişlərdə ola bilən və vətəndaşsızlıq hallarının azaldılmasına daha çox yardım edən hər hansı digər müddəaların zərərinə yozulmamalıdır.

## *Maddə 14*

Bu Konvensiyanın təfsirinə və tətbiqinə dair Razılığa gələn Dövlətlər arasında başqa üsulla həll edilə bilməyən mübahisələr mübahisə edən Tərəflərdən hər hansı birinin tələbi ilə Beynəlxalq Ədalət Məhkəməsinə verilir.

## *Maddə 15*

1. Bu Konvensiya Razılığa gələn hər hansı Dövlətin beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı bütün özünü idarə etməyən, qəyyumluq altında olan ərazilərə, müstəmləkə ərazilərinə və digər qeyri-metropoliya ərazilərinə tətbiq edilir; Razılığa gələn müvafiq Dövlət bu maddənin 2-ci bəndinin müddəalarını nəzərə almaqla, imzalama, təsdiqetmə və ya qoşulma zamanı bu imzalama, təsdiqetmə və ya qoşulma nəticəsində bu Konvensiyanın hansı qeyri-metropoliya ərazisinə, yaxud ərazilərinə avtomatik olaraq tətbiq olunduğunu elan edir.

2. Vətəndaşlıq məsələsində qeyri-metropoliya ərazisinə metropoliya ərazisi ilə eyni münasibət göstərilmədiyi hallarda, yaxud Konvensiyanın bu əraziyə tətbiqi, Razılığa gələn Dövlətin, yaxud qeyri-metropoliya ərazisinin konstitusiya qanunlarına və ya praktikasına əsasən, qeyri-metropoliya ərazisinin əvvəlcədən razılığını tələb etdiyi hallarda Razılığa gələn həmin Dövlət bu Konvensiyanı imzalayandan sonra on iki ay ərzində həmin qeyri-metropoliya ərazisinin lazımi razılığını təmin etmək üçün tədbirlər görür. Belə razılıq alındıqda Razılığa gələn Dövlət bu barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərir. Baş katib həmin bildirişi aldığı tarixdən etibarən orada göstərilən əraziyə, yaxud ərazilərə tətbiq edilir.

3. Bu maddənin 2-ci bəndində xatırlanan on iki aylıq müddət bitdikdən sonra Razılığa gələn müvafiq Dövlət beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı və bu Konvensiyanın tətbiqinə razılığı alınmamış qeyri-metropoliya əraziləri ilə məsləhətləşmələrinin nəticələri barədə Baş katibə məlumat verir.

## *Maddə 16*

1. Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının mərkəzi idarələrində imzalanmaq üçün 1961-ci il avqustun 30-dan 1962-ci il mayın 31-dək açıq olacaqdır.

2. Bu Konvensiya aşağıdakıların adından imzalanmaq üçün açıq olacaqdır:

a) Birləşmiş Millətlər Təşkilatına üzv olan istənilən Dövlət;

b) Birləşmiş Millətlər Təşkilatının Gələcəkdə vətəndaşsızlığın ləğv edilməsinə və ya azaldılmasına dair Konfransında iştirak etməyə dəvət olunmuş hər hansı digər dövlət;

c) Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin bu Konvensiyanı imzalamağa, yaxud ona qoşulmağa dəvət göndərə biləcəyi hər hansı dövlət.

3. Bu Konvensiya təsdiq olunmalıdır və təsdiqnamələr Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa veriləcəkdir.

4. Konvensiya bu maddənin 2-ci bəndində xatırlanan dövlətlərin ona qoşulması üçün açıq olacaqdır. Qoşulma bu haqda sənədin Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa verilməsi yolu ilə həyata keçirilir.

## *Maddə 17*

1. İstənilən dövlət imzalama, təsdiqetmə və ya qoşulma zamanı Konvensiyanın 11, 14 və 15-ci maddələrinə qeyd-şərt edə bilər.

2. Bu Konvensiyada digər heç bir qeyd-şərtə yol verilmir.

## *Maddə 18*

1. Bu Konvensiya altıncı təsdiqnamə və ya qoşulma haqqında sənəd saxlanca verilən gündən iki il sonra qüvvəyə minir.

2. Konvensiyanı altıncı təsdiqnamə və ya qoşulma haqqında sənəd saxlanca veriləndən sonra təsdiq edən, yaxud ona qoşulan hər bir dövlət üçün Konvensiya müvafiq dövlətin öz təsdiqnaməsini, yaxud qoşulma haqqında sənədini saxlanca verdiyi gündən sonra doxsanıncı gün, yaxud bu maddənin 1-ci bəndinin müddəalarına müvafiq olaraq bu Konvensiyanın qüvvəyə mindiyi gün—hansı tarixin daha sonra gəlməsindən asılı olaraq—qüvvəyə minir.

## *Maddə 19*

1. İstənilən Razılığa gələn Dövlət Birləşmiş Millətlər Təşkilatı Baş katibinin adına yazılı bildiriş göndərməklə istənilən vaxt bu Konvensiyanı denonsasiya edə bilər. Razılığa gələn müvafiq Dövlət üçün belə denonsasiya Baş katib bildirişi alandan bir il sonra qüvvəyə minir.

2. 15-ci maddənin müddəalarına müvafiq olaraq, bu Konvensiya Razılığa gələn Dövlətin qeyri-metropoliya ərazisinə tətbiq edildiyi hallarda, bu dövlət istənilən vaxt, müvafiq ərazinin razılığı ilə, Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bu Konvensiyanın ayrıca olaraq həmin ərazi üçün denonsasiya edilməsi barədə bildiriş göndərə bilər. Bu denonsasiya Baş katib belə bildirişi aldığı tarixdən bir il sonra qüvvəyə minir. Baş katib bu bildiriş və onun alındığı tarix barədə Razılığa gələn bütün digər Dövlətlərə məlumat verir.

## *Maddə 20*

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və onun 16-cı maddədə xatırlanan üzvü olmayan dövlətlərə aşağıdakılar haqqında məlumat verir:

a) 16-cı maddəyə müvafiq olaraq imzalama, təsdiqetmə və ya qoşulmalar;

b) 17-ci maddəyə müvafiq olaraq qeyd-şərtlər;

c) 18-ci maddəyə müvafiq olaraq, bu Konvensiyanın qüvvəyə mindiyi tarix;

d) 19-cu maddəyə müvafiq olaraq denonsasiyalar.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi ən geci altıncı təsdiqnamə və ya qoşulma haqqında sənəd saxlanca veriləndən sonra Baş Məclisin diqqətini 11-ci maddəyə müvafiq olaraq, həmin maddədə xatırlanan orqanın təsis olunması məsələsinə cəlb edir.

## *Maddə 21*

Bu Konvensiya qüvvəyə mindiyi gün Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən qeydiyyatdan keçirilir.

Bunun təsdiqi olaraq, aşağıda imza edən səlahiyyətli nümayəndələr bu Konvensiyanı imzaladılar.

Min doqquz yüz altmış birinci il avqustun otuzunda, Nyu-Yorkda Çin, fransız, ingilis, ispan və rus dillərindəki mətnləri eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır; bu nüsxə saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının arxivinə verilir və təsdiq edilmiş surətləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və onun bu Konvensiyanın 16-cı maddəsində xatırlanan üzvü olmayan dövlətlərə göndərilir.

***Azərbaycan Respublikası 1996-cı il 31 may tarixli 105-IQ nömrəli Qanunu ilə bu Konvensiyaya qoşulmuşdur («VES Consultancy» LLC).***